# ƏLİYEV YUNİS ƏSGƏR OĞLU



Yunis Əliyev 9 oktyabr 1958-ci ildə Goranboy rayonunun Qızılhacılı kəndində anadan olmuşdur. 1973-cü ildə burada orta məktəbin səkkizinci sinfini bitirib, təhsilini Dəliməmmədli şəhərindəki 102 saylı texniki-peşə məktəbində davam etdirmişdir. Mexanizator peşəsinə yiyələnən Yunis 1976-cı ildə hərbi xidmətə çağırılır. Tacikistanda əsgəri borcunu yerinə yetirdikdən sonra bir neçə il Rusiyada yaşayır. Sonra Vətənə qayıdaraq əmək fəaliyyətini rayon mərkəzindəki kərpic zavodunda davam etdirir. Yunis Əliyev erməni fitnəkarlarının törətdikləri vəhşiliklərə dözməyərək, 1992-ci ildə Goranboy rayonunda yaradılmış ikinci batalyonun tərkibinə yazılır. İlk döyüşü Ağdərə bölgəsində olur. Bu döyüşdə Yunis ayağından yaralanır. O, bir müddət Bakıda müalicə olunduqdan sonra yenidən cəbhəyə yollanır. 4 may 1992-ci ildə Goranboy rayonunun Tapqaraqoyunlu kəndini mühafizə edən bölük Talış kəndində yerləşən ermənilərin mövqelərini susdurmaq üçün "Yaltaxıl" adlı əməliyyat planı hazırlamışdı. Əməliyyat uğurla başa çatdırıldı. Ertəsi gün mayın 5-də ermənilərin qəfil hücumu nəticəsində döyüşçülərimiz əvvəlki mövqelərinə çəkilməli oldular. Həmin gün Yunis Əliyev erməni gülləsinə tuş gəldi. Yunisin və onun bir neçə döyüşçü dostunun cəsədi 43 gündən sonra, Talış kəndi azad edildiyi zaman tapıldı. Yunis Əliyev 16 iyun 1992-ci ildə doğma kəndində - Qızılhacılıda dəfn edilmişdir. Ailəli idi. İki övladı var. Azərbaycan Respublikası prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə sıravi Əliyev Yunis Əsgər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Qızılhacılı kənd 3 saylı uşaq bağçası onun adını daşıyır. Goranboy rayonunda büstü qoyulmuşdur.